**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏMMƏD QULİYEVİN XOR ƏSƏRLƏRİNİN ÜSLUB XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Gülmira Fəxri qızı Qəhrəmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Azərbaycan Respublikasının Əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Səadət Ağaməmməd qızı Seyidova**

Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Elnara Rəhimağa qızı Dadaşova**

Rəsmi opponentlər: Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

sənətşünalıq üzrə fəlsəfə doktoru, dosent
**Xatirə Nəriman qızı Həsənzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Təranə Əbülfəz qızı Yusifova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
_____________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
_____________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
_____________ **Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndəsi, Əməkdar incəsənət xadimi, istedadlı pedaqoq Məmməd Quliyevin yaradıcılığı milli mədəniyyətimizin inkişafında müstəsna əhəmiyyətə malikdir. Dahi Üzeyir Hacıbəylinin əsasını qoyduğu professional bəstəkarlıq məktəbimizin ənənələrinə əsaslanan Məmməd Quliyev, əsərlərində ənənələr çərçivəsində müasirliyin təzahürünü əks etdirməyə nail olmuşdur. Müəllimi dahi bəstəkar Qara Qarayevin yaratdığı istiqamət üzrə irəliləyən Məmməd Quliyev öz yaradıcılığında milli köklərə əsaslanaraq, yenilik axtarışlarını aydın şəkildə nümayiş etdirməyə müvəffəq olmuşdur.

Məmməd Quliyevin əsərlərində olan bədii dəyər və orijinallığın vəhdəti bəstəkarın fərdi dəst-xəttinin təzahürüdür. M.Quliyevin ənənə və müasirliyə bağlılığı, folklor janrının onun müəllifi olduğu əsərlərə nüfuz etməsi yaradıcılığına xas olan səciyyəvi cəhətdir. Fəlsəfi düşüncə tərzinə malik olan bəstəkar əsərlərində məna çalarlarının müxtəlifliyini yaratmağa, musiqi dilində olan dolğunluğu daha qabarıq ifadə etməyə nail olmuşdur.

Qara Qarayev məktəbinin layiqli nümayəndəsi kimi Məmməd Quliyevin yaradıcılığında simfonik təfəkkürün üstünlüyü onun əsərlərinin janr yönümünü də müəyyənləşdirmişdir. Təsadüfi deyildir ki, bəstəkarın fərqli yanaşmaları onun əsərlərinin həm məzmununda, həm də janr müxtəlifliyində əksini tapmışdır. M.Quliyevin yaradıcılığının geniş janr diapazonu onun əsərlərinin özünəməxsusluğunu müəyyən edərək, Azərbaycan musiqi elmində bu sahəyə müraciət edilməsini şərtləndirmişdir.

XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf yollarının müəyyənləşdirilməsində, eləcə də milli və Avropa musiqi ənənələrinin qovuşmasında və bunun müxtəlif janrlı əsərlərdə təzahürünü tapmasında M.Quliyevin xor əsərlərinin əhəmiyyətli dərəcədə təsirini vurğulamaq təqdirəlayiqdir. Bu baxımdan onun yaradıcılığında üstünlük təşkil etdiyi xor əsərlərinin xüsusiyyətləri bəstəkarın yaradıcılığının aktuallığını müəyyənləşdirir və bu sahə üzrə yazılan nümunələrin öyrənilməsini labüd edir.

M.Quliyevin xor əsərlərində musiqi dilinin dolğunluğu, eləcə də bəstəkarın fərdi yanaşmasında və dəst-xəttindən yaranan xüsusiyyətlər aydın şəkildə nəzərə çarpır. Məhz bu əsərlərdə bəstəkarın zəngin yaradıcılıq fəaliyyətinin parlaq ünsürləri ilə rastlaşmaq mümkündür. Belə ki, Azərbaycan xalqının qədim yazılı ədəbi nümunələrindən başlayaraq, orta əsr klassikasına, XX əsr ədəbi romantizminin nümunələrinə və dövrümüzdə xalqımızın yaşadığı faciələrə kimi, həmçinin sadə zəhmətkeş insanların əməyinin tərənnümünə qədər müxtəlif mövzular onun xor əsərlərində öz ifadəsini tapmışdır. Bu baxımdan M.Quliyevin bu əsərlərinin səciyyəvi xüsusiyyətləri, özünəməxsus keyfiyyətlərinin öyrənilməsi işin aktuallığını müəyyənləşdirir.

Bəstəkarın əsərlərində qeyri-milli və milli cizgilərin üzvi şəkildə qovuşur. Xüsusilə folklor və xalq musiqi intonasiyalarını müxtəlif janrlı əsərlərə daxil etməsi onun ənənə və müasirlik baxımımdan öyrənilməsini şərtləndirir. Bu vəhdət bəstəkarın operasında, simfonik və xor əsərlərində öz əksini tapmışdır.

M.Quliyev klassik ənənələrə sadiq qalaraq, müasirliyə meyl etmiş və simfonik təfəkkür tərzindən irəli gələn xüsusiyyətləri yaradıcılığında ifadə etmişdir. Elə bunun nəticəsidir ki, onun xor əsərlərinin hər biri yeni tapıntı kimi bəstəkarın dəst-xəttinə xas olan xüsusiyyətlərlə zəngindir. Bütün bunların ətraflı şəkildə araşdırılması və aşkara çıxarılması tədqiqatın aktuallığını müəyyənləşdirən əsas cəhətlərdəndir.

M.Quliyev yaradıcılığının müxtəlif istiqamətləri musiqişünasların və tədqiqatçıların diqqət mərkəzində olmuş, elmi-nəzəri tədqiqatlarda fərqli yanaşmalardan araşdırılmış, təhlillər aparılmış və müxtəlif səpkili məqalələrdə işıqlandırılmışdır. Bu işlər əsasən bəstəkar yaradıcılığının xüsusiyyətləri, o cümlədən opera və simfonik əsərləri ilə bağlıdır. Lakin M.Quliyev yaradıcılığının əsas hissələrindən birini təşkil edən xor əsərləri xüsusi tədqiqat obyekti olmayıb. Bundan irəli gələrək bəstəkarın bu istiqamət üzrə yazılan əsərlərinin öyrənilməsi aktuallıq kəsb edir.

Tədqiqat zamanı bəstəkarın şəxsi arxivindən istifadə etməyə şərait yaradan, eləcə də təhlilə cəlb edilən əsərlərinin əlyazmalarının üzə çıxarılmasında köməyini əsirgəməyən oğlu, psixoloq Mehdi Quliyevin də rolunu mütləq şəkildə qeyd etmək istərdik[1].

[1] Məmməd Quliyevin şəxsi arxivi.

E.Abasova M.Quliyevin simfonik yaradıcılığına həsr olunan elmi məqalədə bəstəkarın V simfoniyasını araşdırımışdır[2].

K.Nəsirova M.Quliyevin həyat və yaradıcılığını "Azərbaycan musiqi tarixi"[3] kitabının bəstəkara həsr olunan bölməsində ümumi işıqlandırmışdır

S.Qasımovanın[4], Z.Qafarovanın[5], Z.Dadaşzadənin[6,7, 8, 9, 10], L.Hüseynovanın[11], E.Dadaşovanın[12] elmi və publisistik məqalələrində bəstəkarın yaradıcılığının xüsusiyyətlərindən bəhs edilmişdir.

M.Quliyevin "Aldanmış ulduzlar" operasının cizgiləri E.Babayevin[13], Y.Qabayın[14] və İ.Məhərrəmovanın[15] məqalələrində əhatəli şəkildə şərh edilmişdir.

---

[2] Abasova, E.Ə. Məmməd Quliyevin Beşinci simfoniyası // – Bakı: Qobustan, – 1990. № 4, – s. 6-13.

[3] Nəsirova, K.Y. Məmməd Quliyev /– Bakı: Azərbaycan musiqi tarixi, Elm, – c.4. – 2019. – s. 625-667.

[4] Касимова, С.Д. Мамед Кулиев – Музыка республик Закавказья / С.Д.Касимова. – Тбилиси: Хеловнеба, – 1975. – с.164.

[5] Кафарова, З.Г. Искусство навсегда // Каспий. – 2018, 19 апреля. – с. 4.

[6] Dadaşzadə, Z.A. Azərbaycan səslənən məkanında yeni musiqi // – Bakı: Musiqi dünyası, – 2001. № 3-4, – s. 122-131.

[7] Dadaşzadə, Z.A. Məmməd Quliyevin böyük musiqi aləmi // İmpuls. – 2001, 9 noyabr. – s. 4.

[8] Dadaşzadə, Z.A. Musiqinin sadiq cəngavəri // – Bakı: Qobustan, – 2011. № 2, – s. 11-16.

[9] Дадашзаде, З.А. Бесконечная любовь к музыке // Зеркало. – 2002, 28 сентября. – с. 11.

[10] Дадашзаде, З.А. Верный рыцарь музыки // Зеркало. – 2019, 7 мая. – с. 26. / [Электронный ресурс] / URL: http://anl.az/down/meqale/zerkalo/2011/may/av88.htm.

[11] Hüseynova, L.Ş. Çağırtılara hay verək // Şərqi. – 2011, 7 noyabr. – s. 24-25.

[12] Дадашева, Э.Р. Музыка, повествующая о мире // Каспий. – 2016, 21 сентября. – с. 3.

[13] Babayev, E.Ə. Aldanmış ulduzlar // Azərbaycan gəncləri. – 1977, 4 fevral. – s.4.

[14] Габай, Ю. Обманутые звезды // – Москва: Советская музыка, – 1978. № 8, – с. 55-58.

[15] Məhərrəmova, İ.E. Məmməd Quliyevin "Aldanmış ulduzlar" operasında janr sintezi və ifadə vasitələri axtarışları // – Naxçıvan: AMEA-nın Naxçıvan bölməsinin xəbərləri: İctimai və humanitar elmlər seriyası, – 2014. № 1, – s. 269-281. / [Elektron resurs] / URL: http://ek.anl.az/lib/item?id=chamo:374700&theme=e-kataloq

K.Xankişiyevanın elmi-tədqiqat işində bəstəkarın simfonik təfəkkürünün xüsusiyyətləri araşdırılmışdır[16].

M.Quliyev və L.Abdullayevanın həmmüəllifliyi ilə nəşr olunan monoqrafiyada bəstəkarın fortepiano əsərlərinin musiqi dili və ifaçılıq təfsiri işıqlandırılmışdır[17].

Müxtəlif illərdə bəstəkarın yaradıcılığının səciyyəvi cəhətlərinə A.Kərimlinin [18, 19], K.Hümbətovanın [20, 21] məqalələrində nəzər yetirilmişdir.

Dövrü mətbuatda R.Abbasovanın [22, 23], G.İsmayılovanın [24], L.Bayramovanın[25], S.Quliyevin[26], X.Quliyevin[27], S.Fərəcovun[28, 29],

---

[16] Ханкишиева, К.Г. Особенности симфонического мышления Мамеда Кулиева: / дис. доктора философии по искусствоведению. / – Баку, 2013. –202 с.

[17] Кулиев, М.Г. Музыкальный язык и особенности исполнительской интерпретации «Альбома для фортепиано» Мамеда Кулиева / – М.Г.Кулиев, Л.Б.Абдуллаева. – Баку: Адилоглу, – 2014. – 97 с.

[18] Kərimli, A.K. Məmməd Quliyev haqqında // – Bakı: Musiqi dünyası, – 2001. №1-2 (7), – s. 84-86.

[19] Kərimli, A.K. Təkrarsız Məmməd Quliyev // – Bakı: Qobustan, – 1998. №1-2 (7), – s. 56-59.

[20] Hümbətova, K.H.  Nə yaxşı Azərbaycanda belə musiqini yaradanlar hələ var // – Bakı: Musiqi dünyası, – 2007. №3-4 (33), – s. 96.

[21] Гумбатова, К.Г. О некоторых особенностях творческого почерка Мамеда Кулиева / [Электронный ресурс] / URL: http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?s=1&txtid=230

[22] Аббасова, Р.Д. Вдохновение длиною в жизнь. К 80-летию композитора Мамеда Гулиева // Каспий. – 2017, 28 февраля. – с. 10-11. / [Электронный ресурс] / URL: http://kaspiy.az/news.php?id=56093#.WLV4RVWLTIU

[23] Аббасова, Р.Д. Жизнь и вечность композитора. К 75-летию со дня рождения Мамеда Кулиева // Зеркало. – 2011, 5 февраля. – с. 26. / [Электронный ресурс] / URL: http://www.anl.az/down/meqale/zerkalo/2011/fevral/155155html

[24] İsmayılova, G.H. Milli musiqi mədəniyyətimizim görkəmli nümayəndisini xatırlarkən. Məmməd Quliyev // 525-ci qəzet. – 2011, 12 may. – s.6. / [Elektron resurs] / URL: http://anl.az/down/meqale/525/2011/may/cm27.htm

[25] Байрамова, Л.В.Мир глазами композитора. // Каспий. – 2017, 29 декабря. – с.3.

[26] Кулиева, С.С. Музыка свыше, или откровение композитора // Каспий. – 2016. 11 мая, – с. 3.

[27] Quliyev, X.M. Ləyaqətli şagird // Bakı. – 1971, 30 iyun. – s. 6.

[28] Fərəcov, S.V. Bəstəkar-pedaqoq Məmməd Quliyevin xatirə gecəsi // Mədəniyyət. – 2017, 22 fevral. – s. 4. / [Elektron resurs] / URL: http://medeniyyet.az/page/news/37902/Bestekarpedaqoq-Memmed-Quliyevin-xatire-gecesi.html

M.Hacıyevanın [30], K.Mikeladzenin [31] M.Quliyevin həyat və yaradıcılığını işıqlandıran məqalələri dərc olunmuşdur.

Məmməd Quliyevin həyat və yaradıcılığı müxtəlif internet resurslarında – Azərbaycan Bəstəkarlar İttifaqının rəsmi internet səhifəsində [32], Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının saytında [33], "Musiqi dünyası" jurnalının "Azərbaycan bəstəkarları haqqında" məlumat səhifəsində [34], "Elektron musiqi ensiklopediyası"nda [35], Muğam ensiklopediyası"nın elektron səhifəsində [36], "Böyük bioqrafik ensiklopediya"da [37], "Vikipediya"

---

[29] Fərəcov, S.V. Tar sevgisi onu bəstəkara çevirdi // Mədəniyyət. – 2016, 12 oktyabr, – s. 4. / [Elektron resurs] / URL: http://medeniyyet.az/page/news/16206/-Tar-sevgisi-onu-bestekara-cevirdi.html?lang=ru

[30] Hacıyeva, M.M. Mən musiqiçiyəm, sözdən çox, səs adamıyam" (Məşhurların xanımları) / M.Hacıyeva, F.Ağalar // 525-ci qəzet. – 2014, 14 may. – s.5. / [Elektron resurs] / URL: https://525.az/site/?name=xeber&news_id=18757#gsc.tab=0

[31] Микеладзе, Г.О. Вечер памяти выдающегося композитора Мамеда Кулиева // News.az. – 2007, 12 мая / [Электронный ресурс] / URL: http://www.1news.az/news/vecher-pamyati-vydayuschegosya-kompozitora-mameda-kulieva

[32] Azərbaycan Bəstəkar İttifaqı / [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_B%C9%99st%C9%99karlar_%C4%B0ttifaq%C4%B1

[33] Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası. Bəstəkarlıq kafedrasının görkəmli xadimləri. Quliyev Məmməd Mehdi oğlu / [Elektron resurs] / URL: http://musicacademy.edu.az/bestekar-gorkemli/378-mamed-quliyev.html

[34] Quliyev, M.M. Vikipediya / [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_Quliyev_(b%C9%99st%C9%99kar)

[35] Кулиев Мамед Мехти оглы в энциклопедии музыки / [Электронный ресурс] / URL: http://www.musenc.ru/html/k/kuliev.html

[36] Mugam Ensiklopediyası. Quliyev Məmməd Mehdi oğlu / [Elektron resurs] / URL: http://mugam.musigi-dunya.az/q/quliyev_memmed.html

[37] Большая биографическая энциклопедия. Кулиев. Мамед Мехти-оглы. / [Электронный ресурс] / URL: http://dic.academic.ru/dic.nsf/enc_biography/66015/%D0%9A%D1%83%D0%BB%D0%B8%D0%B5%D0%B2

məlumat saytında[38] və Məmmməd Quliyevin yubiley tədbirlərinin video-yazısında[39] işıqlandırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan bəstəkarlarının xor musiqisi kontekstində M.Quliyevin yaradıcılıq yolunun inkişafını səciyyələndirən xor əsərlərinin üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsinə əsaslanmışdır. Predmeti isə Məmməd Quliyevin xor əsərlərinin təhlili və onların səciyyəvi cəhətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan musiqisi kontekstində M.Quliyevin xor əsərlərinin üslub xüsusiyyətlərini hərtərəfli şəkildə tədqiq etmək və səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Tədqiqatın məqsədindən irəli gələrək, aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

–Məmməd Quliyevin xor əsərlərinin yaranmasına nəzərə salmaq;

–Xor əsərlərinin bəstəkarın yaradıcılığında tutduğu mövqeni müəyyən etmək;

–M.Quliyevin iri həcmli xor əsərlərinin janr müxtəlifliyini üzə çıxarmaq;

–Müəllifin kiçik həcmli xor əsərlərinin üslub xüsusiyyətlərini araşdırmaq;

–M.Quliyevin xor əsərlərində folklor və xalq-milli mənbələrinə əsaslanmanı araşdırmaq;

–Bəstəkarın xor əsərlərini təhlil edərək, forma və musiqi dilinin xüsusiyyətlərini üzə çıxarmaq;

–Tədqiqata cəlb olunmuş xor əsərlərində təhlil metodlarının (harmoniya, polifoniya, forma, tembr və.s) tətbiqini müəyyənləşdirmək və bəstəkarın səciyyəvi xüsusiyyətlərini aşkar etmək.

**Tədqiqat metodları.** Tədqiqat işində M.Quliyevin xor əsərlərinin nəzəri baxımdan təhlil edilməsi və elmi səviyyədə araşdırılması elmi-nəzəri və tarixi metoda əsasən aparılmışdır.

---

[38] Quliyev, M.M. Vikipediya / [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_Quliyev_(b%C9%99st%C9%99kar)

[39] Məmməd Quliyev – 80. / [Elektron resurs] / URL: https://www.youtube.com/watch?v=nuBPRCU2ozM

M.Quliyevin təhlilə cəlb edilən əsərlərində janr mənsubiyyəti, forma-quruluş xüsusiyyətləri, ənənə və müasirliyin qovuşması, xor üçün yazılmış əsərlərinin xüsusiyyətləri nəzəri və analitik təhlil metodunun istifadə olunmasını şərtləndirmişdir. Bəstəkarın əsərləri Azərbaycan musiqisinin inkişafı kontekstinə əsaslanması baxımından təhlil olunmuşdur. Həmçinin, tədqiqata cəlb olunan əsərlərin təhlil olunaraq üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsində sistemli təhlil metoduna istinad edilmişdir.

Dissertasiyanın yazılmasında metodoloji əsas kimi, Azərbaycan və rus musiqişünaslarının elmi əsərlərinə istinad olunmuşdur. Belə ki, B.V.Asafyevin, S.S.Skrebkovun, L.A.Mazelin, Y.V.Nazaykinskinin, V.N.Xolopovanın, M.Q.Aranovskinin elmi əsərlərindəki forma-quruluş, janr və üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi məsələləri, təhlil prinsipləri tədqiqat işinin metodoloji əsasını təşkil edir.

Azərbaycan musiqi elmində Ü.Hacıbəylinin xalq musiqisinin əsasları ilə bağlı tədqiqat işləri nəzəri təhlildə milli köklərə əsaslanmanın müəyyən edilməsində əsas metodu təşkil edir. Azərbaycan musiqişünaslarından E.Ə.Abasovanın, G.A.Abdullazadənin, Z.Y.Səfərovanın, İ.M.Əfəndiyevanın, S.C.Qasımovanın, F.Ş.Əliyevanın, Ş.H.Həsənovanın, Ü.İ.İmanovanın, E.R.Dadaşovanın, Z.A.Dadaşzadənin, K.Y.Nəsirovanın elmi tədqiqatları dissertasiyanın nəzəri-metodoloji əsasının müəyyənləşdirilməsində istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində irəli sürülən əsas müddəalar aşağıdakılardan ibarətdir:

–Məmməd Quliyevin yaradıcılığında xor əsərləri kiçik və iri həcmli formada ifadə olunur;

–Məzmun zənginliyi bu əsərlərin janr, forma və musiqi dili baxımından müxtəlifliyini nümayiş etdirir;

–Bəstəkar xor əsərlərində milli musiqinin xüsusiyyətlərindən bəhrələnir, belə ki, qədim mərasim musiqisi, folklor intonasiyaları, muğam improvizasiyası və rəqs janrının tətbiq edilməsi əsas yer tutur;

–Məmməd Quliyevin xor əsərlərinin janr, forma-quruluş, metro-ritmik əsas və məzmun baxımından geniş şəkildə təhlili aparılır və üslub xüsusiyyətləri müəyyən edilir;

–A kapella (a capella) xor əsərlərinin janr tipologiyası;
–Rekviyem janrında fəlsəfi fikirlərin təcəssümü;
–Xor əsərlərində ənənə və müasirliyin vəhdəti;
–M.Quliyevin Azərbaycan bəstəkarlıq məktəbi kontekstində xor əsərlərinin xüsusiyyətləri.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq bəstəkar M.Quliyevin şəxsi arxivində saxlanılan bir çox xor əsərləri ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmiş və onların elmi-nəzəri təhlili aparılmışdır. Bəstəkarın "Şəbi-hicran", "Bahar bayramı", "Nizami haqqında dastan", "Dağlar", "Dədə-Qorqud diyarı – Azərbaycan", "Günəşli dağlar haqqında hekayət", "Qəzəl", Poema-rekviyem", "20 Yanvar şəhidlərinin xatirəsinə rekviyem", "Kənd kantatası", "Əməyin himni" və "Bizim dağlar" əsərləri ilk dəfə olaraq tarixi və nəzəri baxımdan tədqiq edilmişdir. Təhlil zamanı bu əsərlər birhissəli, üçhissəli, dördhissəli və yeddihissəli olmaqla sistemləşdirilmişdir. Dissertasiyada M.Quliyevin xor əsərlərinin səciyyəvi cəhətləri üzə çıxarılmışdır. Məmməd Quliyevin ənənələrə əsaslanaraq, dövrünün müasir meylinə olan marağı elmi-tədqiqat işi səviyyəsində araşdırılmış və bəstəkarın xor əsərlərində yaradıcı təfəkkürün əsas xüsusiyyətləri kimi mövzu seçiminə özünəməxsus yanaşması, folklora əsaslanması, muğam elementlərindən istifadə etməsi, fərqli xor tərkiblərinə müraciət edərək, obraz-emosional məzmunu açması və düşüncə tərzinin özünəməxsusluğu araşdırılaraq təqdim olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bəstəkarın xor əsərlərinin geniş şəkildə araşdırılması M.Quliyev yaradıcılığının digər sahələrinin də öyrənilməsi üçün zərurət yaradır. Bəstəkarın xor əsərlərinin üslub xüsusiyyətlərini müəyyənləşdirilməsi istiqamətində əldə olunan nəticələr, digər tədqiqat işlərində tətbiq edilən yanaşmalara təsir göstərmək səviyyəsindədir və bunlar elmi işin nəzəri əhəmiyyətini müəyyən edir. Dissertasiyanın nəticə və müddəalarından ali və orta ixtisas musiqi məktəblərində tədris olunan "Azərbaycan musiqi tarixi", "Müasir musiqi", "Musiqi əsərlərinin təhlili" və digər fənlərin tədrisində istifadə oluna bilər ki, bu da tədqiqatın praktiki əhəmiyyətini artırır.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və əldə olunan nəticələr Azərbaycan və bir sıra xarici ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövrü elmi nəşrlərdə, respublika və beynəlxalq səviyyədə keçirilən konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, yeddi paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 9 səhifə 13 755 işarədən, I fəsil 20 səhifə 37 361 işarədən, II fəsil 50 səhifə 73 857 işarədən, III fəsil 44 səhifə 70 428 işarədən, nəticə isə 7 səhifə 11 970 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna olunmaqla 130 səhifə və 207 371 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli** "**Azərbaycan musiqisi kontekstində Məmməd Quliyevin yaradıcılığı"** adlanır və iki paraqrafdan ibarətdir**. 1.1. "Məmməd Quliyevin yaradıcılıq portreti"** adlanır. Bu paraqrafda Azərbaycan musiqisinə 1960-cı illərdə ilk addımlarını qoyan tanınmış bəstəkar, Respublikanın Əməkdar incəsənət xadimi Məmməd Quliyevin (1936-2001) çox məhsuldar yaradıcılığa malik bir sənətkar olması və yaradıcılığının xüsusiyyətləri araşdırılmışdır. Bəstəkarlıq ixtisasını dahi bəstəkar Qara Qarayevdən mənimsəyən Məmməd Quliyev cəsarətli eksperimentator və zəngin yaradıcı təxəyyülə malik idi. Təbii ki, onun düşüncə tərzinin

formalaşmasında, yaradıcılıq yolunun müəyyənləşdirilməsində və ən əsası onun yaradıcı potensialının istiqamətlənməsində müəllimi Qara Qarayevin mühüm təsiri olmuşdur. 1969-cu ildə keçirilən SSRİ bəstəkarlarının qurultayında səslənən simli kvarteti, az sonra bəstələdiyi violonçel ilə kamera orkestri üçün konserti, "Mən Azərbaycanam" vokal-xor simfoniyası, nəfəs və zərb alətləri üçün nonet bəstəkarın yaradıcılıq axtarışlarını təsdiqləmişdir. Üç hissədən ibarət "Azərbaycan" simfoniyasında solist və xordan istifadə edilməsi əsərin ideyasını daha qabarıq şəkildə açır. 1977-ci ildə M.Quliyevin böyük yaradıcılıq nailiyyəti olan "Aldanmış ulduzlar" operası tamaşaya qoyulur. Bu operada ilk dəfə olaraq, Azərbaycan səhnəsində Novruz bayramı mərasimi canlandırılmışdır. M.Quliyevin bu əsərində folklor mərasimini canlandırması onun xalq qaynaqlarına bağlılığını nümayiş etdirirdi. Elə bunun təsiridir ki, bəstəkarın sonrakı dövrdə yaranan bir çox xor əsərlərində milli mərasimlərdən irəli gələn cəhətlər əksini tapmışdır. M.Quliyev çoxşaxəli yaradıcılıq fəaliyyətində həmişə müasir mövzulara müraciət etmiş, yüksək vətəndaşlıq duyğusunu nümayiş etdirmişdir. Bəstəkarın 20 Yanvar şəhidlərinin xatirəsinə solist, xor üçün "Rekviyem", Xocalı şəhidlərinə ithaf olunan "simfoniya-rekviyem", doğma yurdunu tərk edən insanların faciəsini əks etdirən "Kədər musiqisi" və bir sıra digər əsərlərində müasir mövzular öz təcəssümünü tapır. M.Quliyev həmişə sadə, lakin avanqard ifadə vasitələrinə malik olan musiqi yaratmağa çalışırdı və bunu bəstəkarın müxtəlif janrlı əsərlərində izləmək mümkündür. M.Quliyevin yaradıcılığında ən məhsuldar sahələrdən biri iri instrumental formalar – simfonik musiqi, xüsusilə simfoniya janrıdır. Bəstəkarın yaradıcılığının təkamülü Azərbaycan musiqi mədəniyyətinin inkişafının XX əsrin 60-90-cı illəri ilə bağlıdır. Müasirliklə sıx bağlı olan M.Quliyevin gerçəkliyin rəngarəng hadisələrini canlandıran musiqisində müxtəlif obrazlar dairəsi əks olunur. M.Quliyevin yaradıcılığında diqqətçəkən əsas məqam isə obrazların fərdiləşməsidir. Məmməd Quliyevin bütün yaradıcılığı boyu aparıcı xətlə keçən mövzu isə müasir gerçəkliyin əks olunması və dövrün nəbzinin verilməsidir.

**1.2. "Məmməd Quliyevin əsərlərində ənənə və müasirlik"** adlanır. Bu paraqrafda M.Quliyevin yaradıcılığında ənənə və

müasirliyin bədii yaradıcılığın mahiyyətini təşkil etməsindən bəhs olunur. İlk növbədə onu qeyd etməliyik ki, M.Quliyevin yaradıcılğında ənənə və müasirlik vahid tamın iki qütbü kimi dərk edilir və bunlar bərabər hüquqludur, bir-biri ilə ziddiyyət təşkil etmir. Ənənə özlüyündə mürəkkəb bir kompleks olaraq qiymətli təcrübənin qorunub saxlanılmasını, ötürülməsini və yeni gerçəkliyə uyğunlaşmanı ehtiva edir. M.Quliyevin müəllimi Q.Qarayevdən əxz etdiyi əsas ənənə hansıdır? Bu ilk növbədə musiqi təfəkkürünün bütövlükdə tam yeni müstəvi üzərinə köçürülməsidir. Elə bu cəhət M.Quliyev musiqisinin müasirliyini müəyyən edir. Bəstəkar yaradıcılığında müasirlik fərdidir. M.Quliyev yaradıcılığının özəlliyi ondadır ki, onun hər yeni yaranan əsərində fərdi üslub təkrarsız konsepsiyaya malikdir. M.Quliyev ciddi yazısı ilə seçilən bir bəstəkardır. Bu ciddilik onun əsərlərinin ideya məzmununda, tətbiq olunan ifadə vasitələrində, orkestrləşdirmə üslubunda ardıcıl olaraq özünü büruzə verir. Orkestrləşmədə ən orijinal tapıntılara meyl etdikdə və xor partituralarında qeyri-adi ahənglərlə səslənmələri kəşf etdikdə belə, o, öz ciddi üslubuna sadiq qalır. M.Quliyevin əsərlərində qoboy və arfanın solosunun simli alətlərin fonunda özünəməxsus səslənməsi, violonçel və orkestr üçün konsertində yallı rəqsi ritminin qroteskli (qorxulu) tərzdə istifadəsi buna nümunədir.

Dissertasiyanın **II fəsli** “**Məmməd Quliyevin kiçik həcmli xor əsərlərində janr müxtəlifliyi”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

**2.1. “M.Quliyevin xor əsərlərində klassik poeziya ilə musiqinin vəhdəti”** adlanır. Bu paraqrafda Məmməd Quliyevin XVI əsr görkəmli Azərbaycan şairi Məhəmməd Füzulinin sözlərinə yazdığı xor və simli alətlər orkestri üçün “Şəbi-hicran” romantik poeması və səs və simfonik orkestr üçün “Qəzəl” əsərləri araşdırılır. Məlum olduğu kimi, musiqidə poema janrı romantik dünyagörüş prinsiplərini əks etdirən iri formalı birhissli əsərdir. Lirik və epik xüsusiyyətlərin lirik başlanğıca tabe olduğu romantik poema isə ədəbi janr növüdür. Adətən, romantik poema sərbəst kompozisiya kimi nəzərdə tutulur. Məmməd Quliyevin “Şəbi-hicran” poemasının əsasına Füzulinin məşhur “Məni candan usandırdı” qəzəli qoyulmuşdur. M.Quliyevin romantik poemasında qəzəlin 7 beyti

istifadə olunmuşdur. Poema simli alətlərin ifasında on iki xanədən ibarət elegik düşüncəli giriş ilə açılır. Simli alətlərin *piano* ahəngində uzadılan səsləri sanki dahi şairin, böyük söz ustadının möhtəşəm obrazını göz önündə canlandırır. M.Quliyevin melodikasında əruz və heca vəzninin qarşılıqlı təması parlaq ifadəsini tapır.

Məmməd Quliyevin yaradıcılığında səs və orkestr üçün nümunələrə də müəyyən yer verilir. Bu, bəstəkarın vokal musiqiyə və Azərbaycan poeziyasına olan marağından irəli gəlir. Məmməd Quliyevin Azərbaycan ədəbiyyatı tarixində orijinal əbədi simalardan biri olan Hüseyn Cavidin yaradıcılığının ilk dövrlərində yazdığı "Get" qəzəlinin poetik mətninə əsaslanan səs, simli alətlər, 2 fleyta və fortepiano üçün nəzərdə tutulmuş "Qəzəl" əsəri özünəməxsus üslubu və dəst-xətti ilə seçilir. Bəstəkar qəzəlin 7 beytini əsərin forma xüsusiyyətlərinə uyğun şəkildə qruplaşdırır. Belə ki, qəzəlin beytləri üçhissəli forma çərçivəsində təsnifatlaşdırılmışdır. Orkestrin yığcam qənaətcil partiyası vokal ifaçıya önəm verilməsi ilə əlaqədardır. Poetik mətnin məzmunu və əruz vəzninin (rəməl bəhri) poetikası və melodikliyi orkestrin şəffaf ifadə vasitələri fonunda dərindən açılir. Orkestr bir fon kimi çıxış edir, üstünlük əsasən simli alətlərə verilir.

**2.2.** "**Kiçik həcmli kantata və oratoriyalarının üslub cizgiləri**" adlanır. Bu paraqrafda M.Quliyevin "Bahar bayramı" kantatası" və "Dədə Qorqud diyarı – Azərbaycan" oratoriyası araşdırılır. Məmməd Quliyevin soprano, qarışıq xor və simfonik orkestr üçün yazılmış "Bahar bayramı" adlı birhissəli kantatası Vidadi Paşayevin poetik mətninə əsaslanır. Bu əsər M.Quliyevin xor musiqisində özünəməxsus dəsti-xətti və üslubu ilə seçilir. Həcmi və miqyası etibarı ilə bu əsər yığcam və lakonikdir. Əsər özünəməxsus melodik üslubu, intonasiya quruluşu və xor fakturası ilə fərqlənir. İşıqlı və bayramsayağı əhval-ruhiyyəli bu kantatada şərq aləmində ən qədim bayramlardan biri olan Novruz vəsf edilir. Bayramın əsas atributu kimi yazın gəlişinin və təbiətin oyanmasının rəmzi olan səməninin tərənnümü əsas poetik məzmunu təşkil edir. Qədim Novruz mərasimini milli irsin özünəməxsus sahəsi olan aşıq musiqisi ilə canlandıran bəstəkar bu əsərdə sanki xalq məişətinin janr lövhəsini yaradır. Bu birhissəli əsərdə istər solist, istərsə də xor və orkestr özünəməxsus funksiya daşıyır. Simfonik orkestrdə bütün

qruplar təmsil olunur. Burada arfa bir sıra epizodlarda harmonik ostinato rolu oynayaraq xüsusi kolorit yaradır. Solist və xorun funksiyalarının bölüşdürülməsi də diqqətiçəkən məqamlardandır.

Məmməd Quliyevin yaradıcılığının son dövrünə aid olan solo, soprano, xor və simfonik orkestr üçün "Dədə Qorqud diyarı – Azərbaycan" adlı birhissəli oratoriyası Xalq şairi Fikrət Qocanın sözlərinə yazılmışdır və bəstəkarın vokal-instrumental musiqi sahəsində yeni üslub axtarışlarını özündə əks etdirir. "Dədə Qorqud diyarı – Azərbaycan" əsərinin janrı kantata, poema kimi qeyd olunsa da, başqa bir mənbədə əsər bariton, soprano, xor və simfonik orkestr üçün oratoriya kimi də səciyyələndirilir. Belə ki, əsərin əlyazma şəklində olan partiturasının titul vərəqində əsərin janrı birhissəli oratoriya kimi qeyd edilmişdir. Yəni, burada həm kantata və oratoriya, həm də xor poeması xüsusiyyətləri təzahür olunur. Belə janr sintezi – polijanrlılıq M.Quliyevin bir sıra vokal-instrumental əsərləri üçün səciyyəvidir.Ümumiyyətlə, "Dədə Qorqud diyarı – Azərbaycan" əsərində oratoriya janrına xas olan lirik və epikliyin qovuşması, kantata janrından irəli gələn solistlərə üstünlük verilməsi və birhissəli poemaya xas olan ardıcıl inkişaf özünü büruzə verir.

**2.3. "A kapella (a cappella) xor əsərlərində milliliyin təzahürü"** adlanır və bəstəkarın "Nizami haqqında dastan", "Dağlar", "Günəşli dağlar haqqında hekayət" əsərləri təhlil edilir. M.Quliyevin dahi Azərbaycan şairi, böyük mütəfəkkir Nizami Gəncəvinin poeziyasına həsr olunmuş "Nizami haqqında dastan" (1986) adlı birhissəli əsəri a kapella xoru üçün nəzərdə tutulmuşdur. Əsər şair Ələkbər Salahzadənin sözlərinə yazılmışdır və şeirlər əsərin lirik-epik çalarlarına boyanmışdır. "Nizami haqqında dastan" xor əsərində Nizaminin poeziyasından nümunələr deyil, onun şeiriyyatını və yaradıcılığını mədh edən və şairin vəsfinə əsaslanan şeirlərdən istifadə edilmişdir. Əsər mürəkkəb üçhissəli formada yazılmışdır. Xorun imkanlarına bələd olan bəstəkar bu əsərdə hər bir partiyanın səs imkanlarını nəzərə alaraq, obraz-emosional məzmunu qabarıq şəkildə göstərməyə nail olmuşdur.

Bəstəkarın "Dağlar" (1986) birhissəli xor miniatürü Xalq şairi Səməd Vurğunun sözlərinə yazılmışdır. "Dağlar" xor miniatüründə bəstəkar poetik mətnin lirik çalarlarına həm də əsl şərq şairi kimi

yanaşır. O, dağlar mövzusuna öz bədii duyumu mövqeyindən baxaraq, milli nəfəs və ahəngləri bu kiçik miniatüründə özünəməxsus şəkildə təcəssüm etdirir. Dördsəsli bu kompozisiyada hər səsin öz tembri, öz koloriti vasitəsilə poetik mətnin zərif çalarları əks olunur. Xor miniatürünün başlıca diqqətçəkən məqamı melodik inkişafdır. Burada M.Quliyevin musiqisi üçün səciyyəvi olan özünəməxsus minimalizm özünü büruzə verir. Əsərdəki bu üsul aşıq musiqisinə xas cəhətlərdən irəli gəlir. Məqamın eyni pilləsinə qayıdış, aşıq musiqisinin melodikası üçün səciyyəvidir. M.Quliyevin bu kiçik miniatüründə müasirlik və milliliyin parlaq təzahürü öz əksini tapır.

Müşayiətsiz qarışıq xor üçün şair T.Mahmudun sözlərinə "Günəşli dağlar haqqında hekayə" ("Сказание о солнечных горах") birhissəli əsəri rus dilində yazılmış poetik mətnə əsaslanır. Bundan irəli gələrək, tədqiqat işində əsərin hissələrinin adı əlyazmada olduğu kimi rus dilində verilir. Bu, vətənpərvərlik mövzusunda xor əsəridir. "Günəşli dağlar haqqında hekayə" ("Сказание о солнечных горах") birhissəli xor əsəri bəstəkarın yaradıcılığında vətənpərvərlik mövzusunun hər üç istiqamətini – nikbin başlanğıc, faciə və təbiətin tərənnümünü özündə birləşdirir. Əsərdə millilik xüsusiyyəti ən çox faktura və harmonik üslubda özünü büruzə verir. Burada vokal-instrumental muğam çalğısı üslubuna xas olan səsaltı polifoniyadan istifadə edilmişdir. Harmonik üslubda isə daha çox aşıq musiqisinə xas olan sekunda kvarta quruluşlu akkordların tətbiqi səciyyəvidir. Zərbi-muğamlara xas olan ostinatlıq prinsipinə də müəyyən yer verilir. Vokal partiyada milli alətlərin (zərb, saz) səsinin təqlidi verilir.

Dissertasiyanın **III fəsli** "**Məmməd Quliyevin iri həcmli xor əsərlərinin üslub xüsusiyyətləri"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir.

**3.1. "Rekviyem janrının prinsiplərinin M.Quliyevin əsərlərində tətbiqi yolları"** adlanır. Bu paraqrafda bəstəkarın "Həlak olanlar" poema-rekviyem" və "20 Yanvar şəhidlərinin xatirəsinə rekviyem" əsərləri araşdırılır.

M.Quliyevin "Həlak olanlar" adlı poema-rekviyem (1985) əsəri bas, qarışıq xor və simfonik orkestr üçün yazılmışdır. Üçhissəli quruluşa malik olan "Poema-rekviyem" faciədə həlak olanlara həsr

olunmuşdur. Poema-rekviyem Məmməd Quliyevin çox sevdiyi və yaradıcılığına dəfələrlə müraciət etdiyi şairlərdən biri olan Ələkbər Salahzadənin sözlərinə yazılmışdır. M.Quliyev öz xor əsərini “Poema-rekviyem” adlandırmışdır. Bu əsər üçhissəli quruluşa malikdir. Bəstəkarın şəxsi arxivindən əldə etdiyimiz partiturada I hissənin sərlövhəsi göstərilməsə də, II hissə “Əbədi xatirə” (“Вечная память”), III hissə isə “Himn” sərlovhəsi altında verilir. I hissənin adı qeyd olunmamışdır. “Poema” anlayışı burada ədəbi mənada, yəni ədəbiyyatın lirik-epik təsviri növlərindən biri kimi istifadə edilmişdir. Əsərdə həyat hadisələrinin doğurduğu hiss və duyğular ifadə olunur. M.Quliyevin orijinal “Həlak olanlar” poema-rekviyem əsərində bas solosuna mühüm yer verilir. Solist-bas əsərin birinci və üçüncü hissələrində çox fəaldır. Əsərin ikinci hissəsini isə bəstəkar çox qeyri-adi tərzdə şərh edir. Burada yalnız qarışıq xor–müşayiətsiz a kapella çıxış edir. Bas partiyası I və III hissələrdə çox qabarıq verilir. Hətta I hissə basın solosu ilə başlanır. Basın funksiyası II hissədə də müəyyən dərəcədə qabardılmışdır, a kapella ifa olunan II hissədə xorun bas partiyası isə I və II səslərə ayrılır. Onu da qeyd edək ki, əsərin “Poema-rekviyem” adlandırılması burada epik elementlərin II hissənin lirik süjeti ilə birləşməsində özünu büruzə verir. Bu əsər işıqlı C-dur tonallığının tonika üçsəslisi ilə bitir və qəhrəmanların ölməzliyini təsdiqləyir. Adətən rekviyem həyat və ölüm fəlsəfəsini canlandırır. “Poema-rekviyem”də isə bu məhfum nikbinliklə və işıqlı tərzdə tamamlanır. Bu isə Məmməd Quliyevin həyat fəlsəfəsini nümayiş etdirir.

“20 Yanvar şəhidlərinin xatirəsinə rekviyem”də (1999) M.Quliyev Azərbaycan xalqının tarixində əbədi yeri olan 20 yanvar hadisələrinə öz münasibətini bildirmişdir. Əsər şair Fikrət Qocanın sözlərinə yazılmışdır. Əsər ilk dəfə 2017-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkarın 80 illiyinə həsr edilmiş konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellasının ifasında səslənmişdir. “Rekviyem”də bəstəkar xorun qadın səslərindən alt partiyasına üstünlük verir. Nisbətən aşağı registrdə oxuyan altlar övladını itirən anaların faciəsini, ah-naləsini təcəssüm etdirir. Əsərdəki anaların iztirabları rekviyemin dramaturji xəttini daha da

gərgin edir. M.Quliyevin bir hissədən ibarət olan “Rekiyem” əsəri sadə üç hissəli formada yazılmışdır. “Rekviyem” M.Quliyevin xor üslubunun bir sıra yeni cəhətlərini nümayiş etdirir. Burada solist (messo-soprano) və xorun partiyasında ağı, oxşama, mərsiyə xüsusiyyətlərinin olması, əsərin obraz-emosional məzmunu ilə bağlıdır. Melodiyanın məhdud diapazonu, xromatik yarım tonlarda hərəkəti kədərli intonasiyalar yaradır.

**3.2. “İri həcmli kantata və oratoriyalarında təbiət mövzusunun təcəssümü”** adlanır. Bu paraqrafda“Kənd kantatası”, “Əməyin himni” kantatası”, “Bizim dağlar” oratoriyası araşdırılır.

“Kənd kantatası”sı solistlər, xor və simfonik orkestr üçün yazılmışdır. Bu üçhissəli kantatanın poetik mətni bəstəkarın xor əsərlərinin bir çoxunda müraciət etdiyi şair Ələkbər Salahzadənin (1981) şeirlərinə əsaslanır. Əsər “Kənd kantatası” adlandırılsa da, məzmun etibarı ilə burada ilin fəsilləri, əsasən bahar fəsli tərənnüm olunur və romantik təsviretmə nəzərə çarpır. Poetik mətndə mifologiyaya əsaslanan, günəşi haraylama motivləri (birinci hissədə), fəsillərin gözəlliyi (ikinci hissə), insanın doğma el-obası, ata-baba ocağının təbiətdən güc-qüvvət alaraq yaşanması (üçüncü hissə) vəsf olunur. “Kənd kantatası” bu nöqteyi-nəzərdən daha çox lirik-fəlsəfi əsər kimi dərk edilir. İnsan və təbiətin bağlılığı və onlar arasında olan vəhdətinin əbədiliyi kantatanın əsas ideyasını təşkil edir. Kantatanın sonluğu insanın vətənə, el-obaya, doğulub boya-başa çatdığı doğma ocağına bağlılığını bir daha təsdiqləyir. Kantata solistlər, xor və böyük simfonik orkestr üçün nəzərdə tutulsa da, orkestr tam tərkibdə istifadə edilmir. Birinci hissənin girişi əvvəlcə arfa və I violinlərin, daha sonra onlara qoşulan vibrafon və fortepianonun ifasında səslənir ki, bununla da tədricən orkestrin tərkibi genişlənir. Ümumiyyətlə, kantatanın birinci hissəsində orkestrdə kamera tipli və şəffaf səslənməyə yer verilir. Kantatanın ikinci hissəsi birinci hissədən fərqli olaraq orkestr girişi ilə deyil, birdəfəlik xorun ifası ilə başlanır. Kantatanın ikinci hissəsində isə xor aparıcıdır, orkestr tam tərkibi ilə tətbiq olunur və zərb alətlərinə geniş yer verilir. Üçüncü hissədə orkestr daha lakonikdir.

“Əməyin himni” kantatası” dörd hissədən ibarətdir: soprano, xor və simfonik orkestr üçün yazılmışdır. Kantatanın poetik mətni

bəstəkarın bir çox əsərlərində olduğu kimi Ələkbər Salahzadə və Vidadi Paşayevə məxsusdur. Kantatanın I hissəsi "Yazın müjdəsi" Novruz bayramının əsas atributlarından biri olan səməninin gözəlliyini əks etdirir. Burada səməni həyat rəmzi və baharın gəlişi kimi tərənnüm olunur. "Əməyin vəsfi" adlanan II hissə isə ilin fəsillərini təsvir edir. "Ay mübarək" adlanan III hissədə isə baharın gözəllikləri və payızın bərəkətindən bəhs olunur. "Yallı-məhsul bayramı" adlanan kantatanın finalı isə əmək adamlarının sevincini və möhtəşəm birliyini əks etdirir. Kantatanın əsas mövzusu insan zəhmətinin himnidir. Bəstəkar burada xalq musiqisinə əsaslanaraq lirik-epik boyalara üstünlük verir. Əsərin bütün hissələri moderato tempindədir. "Əməyin himni" kantatasında I hissə "Təntənəli" kimi qeyd olunur. II hissə mülayim xarakterlidir və solistin ifasında lirik mahnıdır. III hissə lirik-epik mərasim nəğməsi, IV hissə isə möhtəşəm epik ruhlu yallıdır. M.Quliyevin musiqi dili maraqlıdır. Belə ki, kompozisiyada milliliklə müasirlik üzvü surətdə birləşmişidir.

"Bizim dağlar" oratoriyası" (1984) Hüseyn Cavidin sözlərinə solist, qarışıq xor və simfonik orkestr üçün yazılmışdır. Bu monumental iri miqyaslı oratoriya yeddi hissədən ibarətdir. Oratoriyanın hər hissəsinə bəstəkar sərlövhə vermişdir. Əksər hissələrin adı istifadə olunan şeirlərin başlanğıc sətrindən götürülmüşdür. Oratoriyanın I, II, III, V, VII hissələrində xor aparıcı mövqedədir. IV hissə sırf instrumentaldır: burada solist və xor iştirak etmir. VI hissədə isə xor iştirak etmir. Bu hissə solistlə orkestr üçün nəzərdə tutulmuşdur. Orkestrləşmə çox qənaətçildir. Əsasən növbə ilə ağac nəfəsli və simli alətlər vokal ifaçısını müşayiət edir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir. Nəzərə çatdırılır ki, Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndəsi, Əməkdar incəsənət xadimi, istedadlı pedaqoq Məmməd Mehdi oğlu Quliyevin xor əsərlərinin araşdırılması və üslub xüsusiyyətlərinin müəyyən edilməsi aktual və əhəmiyyətli olması baxımından diqqətəlayiqdir. Bəstəkarın yaradıcılığının indiyə qədər araşdırılmayan bu sahəsini əhatə edən əsərlərin tədqiqata cəlb edilərək ətraflı təhlil edilməsi Məmməd Quliyevin bir çox xüsusiyyətlərinin üzə çıxarılaraq Azərbaycan musiqişünaslıq elminə gətirilməsini şərtləndirmişdir. Məmməd

Quliyevin xor əsərlərinin araşdırılması onun təhlildən kənarda qalan və əlyazma şəklində olan əsərlərinə müraciət olunmasına səbəb olmuşdur. Tədqiqat işi zamanı təhlil edilən xor əsərləri bəstəkarın yaradıcılığında bir sıra özünəməxsus xüsusiyyətlərin və yeniliklərin aşkarlanmasına imkan yaratmışdır.

Aşkar olunan ən mühüm cəhət M.Quliyevin xor əsərlərində ənənə və müasirliyin üzvi surətdə bağlılığı və bu qovuşmadan yaranan təzahürlərin əks olunmasıdır. Yaradıcılığının müxtəlif sahələrində ənənələrə sadiq qalan bəstəkar, əsərlərindəki yenilikləri də bu çərçivədə göstərməyə nail olmuşdur.

M.Quliyevin çoxsaylı xor əsərlərinin araşdırılması zamanı onların məzmun, obraz, musiqi və harmonik dili, forma cəhətdən özünəməxsus keyfiyyətlərə malik olması müəyyənləşdi. Tədqiqat işi zamanı bəstəkarın xor əsərlərinin həm birhissəli, həmçinin üçhissəli və dördhissəli olması müəyyənləşdi. Onlar təsnifata bölünərək qruplaşdırılmışdır.

Eyni zamanda, bir çox bəstəkarların yaradıcılığında rast gəlinən bu janra, M.Quliyevin yeni rakursdan yanaşması da müəyyən edildi. Onu səciyyələndirən əsas cəhət xor əsərlərində ənənə, müasirlik və milliliyin qovuşmasıdır. Dissertasiyada bəstəkarın xor musiqisində məqam intonasiyaları, melodik quruluş, melodiya və harmoniyanın həmahəngliyi, mövzunun inkişafında melodik və ritmik variantlılıq müəyyən olundu. M.Quliyevin yaradıcılığında bu məsələlər fərdi və milli ənənəvi təfəkkürün özünəməxsusluğundan irəli gəlməsi aşkar olundu. Eyni zamanda bəstəkarın yaradıcılığında ənənəvi musiqidən müxtəlif üsullarla istifadə etməsi, onun dərin qatlarına müraciəti özünü aydın şəkildə göstərir. O da müəyyən edildi ki, M.Quliyevin xor əsərlərində muğamla bağlı xüsusiyyətlər musiqi dilinin ifadə vasitələrindən birinə çevrilir; xor musiqisində isə melodik – ritmik quruluş, məqam intonasiyası əsasına istinad özünü əks etdirir. Digər nəzərə çarpan mühüm cəhət isə bəstəkarın əsərlərində folklor ənənələrinə, milli musiqi intonasiyalarına bağlılıqdır. Bu xüsusiyyət bəstəkarın xor əsərlərində qabarıq şəkildə nəzərə çarpır. Belə ki, “Kənd kantatası” əsərində bəstəkar xalq yaradıcılığına, aşıq havalarının intonasiyalarına, muğamın qanunauyğunluqlarına olan

bağlılığını musiqi ifadə vasitələri ilə qovuşdurmuş və təbiət mövzusunu özünəməxsus yanaşması baxımından əks etdirmişdir.

M.Quliyevin xor musiqisində proqramlılıq ön plandadır. Bəstəkarın xor əsərlərində məzmun müxtəlifdir. Belə ki, M.Quliyevin xor əsərləri Azərbaycan xalqının qədim dastan mövzusundan ("Kitabi-Dədə Qorqud") başlayaraq, dahi mütəfəkkir şair Nizami Gəncəvi irsinə, Füzuli şeiriyyətinə, daha sonra isə XX əsr Azərbaycan romantik ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavid yaradıcılığına əsaslanır.

Bəstəkarın əsərlərində, təbiət mövzuları, zəhmətkeş insanların əməyinin tərənnümü də əks olunmuşdur. M.Quliyev daim yeni mövzular axtarışında olaraq, əsərlərini fərqli obrazlar aləmi ilə zənginləşdirməyə nail olmuşdur.

M.Quliyevin folklor ənənələrinə, milli musiqi intonasiyalarına olan bağlılıq mühüm cəhətdir. Bu xüsusiyyət bəstəkarın xor əsərlərində qabarıq şəkildə nəzərə çarpır. O, aşıq havalarının intonasiyaları, muğamın qanunauyğunluqları musiqi ifadə vasitələri ilə qovuşdurma üsulu ilə əks etdirir.

M.Quliyevin xor üçün yazılan əsərlərində milli xüsusiyyətlər parlaq şəkildə əksini tapmışdır ("Şəbi-hicran" romantik poeması, bariton, soprano, xor və simfonik orkestr üçün "Dədə Qorqud diyarı – Azərbaycan" oratoriyası). Ümumiyyətlə, bəstəkarın milli musiqinin qanunauyğunluqlarına, muğamın inkişaf prinsiplərinə, eləcə də folklora əsaslanan əsərlərində ifadə vasitələrinin çərçivəsini genişləndirmişdir.

Bəstəkarın xor əsərlərində qədim mərasim musiqisinin xüsusiyyətlərinə və folklor ənənələrinə istinad edilməsi, özünəməxsus yer tutur. M.Quliyevin əsərlərində sadə melodik dil, kiçik diapazona malik melodiya və variantlı inkişaf ("Bahar bayramı" kantatası), xalq mərasim mahnılarının poetik və melodik xüsusiyyətləri ("Əməyin himni" kantatası) nəzərə çarpır. Sənətkarın xalq məişətini ifadə edən janr lövhələri daha çox Novruz adət-ənənələrinin və aşıq musiqisi ilə əlaqəlidir ("Bahar bayramı" kantatası). Yallı və cəngi rəqslərində əsas aparıcı milli alət olan zurnanın təqlidi isə qədim mərasim xüsusiyyətləri ilə bağlıdır.

M.Quliyevin xor əsərlərində aşıq musiqisinə xas olan poetik mətn, məqam xüsusiyyətləri (əsasən şur məqamı), motivin dəfələrlə dəyişilmiş şəkildə keçməsi, səciyyəvi harmoniyalar, sinkopalı ritm, kvarta-kvinta quruluşlu akkordlar öz əksini tapmışdır (“Bahar bayramı” kantatası, “Nizami haqqında” dastan və “Dağlar” a kapella (*a cappella)* xor əsərləri, “Kənd kantatası”). Xor miniatürlərində aşıq musiqisi üçün səciyyəvi olan lakoniklik əks olunmuşdur (“Dağlar” a kapella (*a cappella)* xor əsəri). Xor fakturasında bəstəkar tərəfindən xalq mahnılarında olan çoxsəslilik, aşıq musiqisindəki instrumental çalğı xüsusiyyətləri tətbiq edilmişdir (“ Bahar Bayramı” kantatası, “Dağlar” miniatürü).

Bəstəkarın harmonik dilində milli məqamlara əsaslanma üstünlük təşkil edir. Alterasiyalı harmonik gedişlər (“Şəbi-hicran”), zərbi-muğamlara xas olan ostinatlıq (“Günəşli dağlar haqqında hekayə”) muğam üslubundadır, harmonik dilin sadəliyi isə əsərin məzmunundan irəli gəlir (“Kənd kantatası”).

M.Quliyevin əsərlərində xor fakturası çox zəngindir. Bəstəkar aşıq musiqisinə xas olan xüsusiyyətləri xorun musiqi toxumasında olan imitasiya və səsaltı polifonik elementlərlə ifadə edir. Bəstəkarın hər bir əsəri onun polifonik təfəkkürə malik olmasını büruzə verir. O, əsərlərində müxtəlif polifonik inkişaf üsullarından istifadə edib. “Şəbi-hicran” xor poemasında səs və ritmin polifoniyası xüsusi olaraq nəzərə çarpır.

M.Quliyevin xor əsərlərində digər bir cəhət orkestr alətləri qruplarını özünəməxsus şəkildə qənaətlə və daha yığcam tərkibdə istifadə etməsidir. O, öz əsərlərində motiv işlənməsinin dəyişikliklərinə əsaslanaraq, bütöv bir fikri ifadə etməyə nail olur. Motivin variantlı şəkildə işlənməsi isə xalq yaradıcılığına xas olan cəhətdir.

Bəstəkarın xor əsərlərində qədim mərasim musiqisinin xüsusiyyətlərinə və folklor ənənələrinə istinad edilməsi, özünəməxsus yer tutur. M.Quliyevin əsərlərində sadə melodik dil, kiçik diapazona malik melodiya və variantlı inkişaf (“Bahar bayramı” kantatası), xalq mərasim mahnılarının poetik və melodik xüsusiyyətləri (“Əməyin himni” kantatası) nəzərə çarpır. M.Quliyev Şərq poeziyasına həssaslıqla yanaşaraq, qəzəl janrını xor musiqisinin imkanları ilə uyğunlaşdırmışdır.

Beləliklə, Məmməd Quliyevin xor əsərlərinin tədqiqi, zamanı onun üslub cəhətlərinin formalaşması ilə bağlı əsas istiqamətlər müəyyən edildi. Bu əsərlərin bəstəkarın yaradıcılığının əsas potensialı olduğu da təhlil əsasında üzə çıxarıldı. Simfonik təfəkkür tərzinə malik olan bəstəkarın xor əsərlərində orkestrin qeyri-adi koloritini yaratmasına və qənaətcilliklə alətlərin səs tembrlərindən istifadə etməsinə, diqqət yetirmək vasitəsilə və bir çox musiqi dili detallarını təhlillərdə göstərmək üsulu ilə janr kateqoriyası məsələlərinə də aydınlıq gətirildi. Aparılan təhlilin nəticəsində M.Quliyevin Azərbaycan bəstəkarlıq məktəbinin inkişafı kontekstində ənənə, müasirlik və millilik xüsusiyyətlərinə əsaslanması müəyyən edildi və onun özünəməxsus üslub cizgilərinə malik olması nəzərə çatdırıldı. Beləliklə, bəstəkarın milli mədəniyyətimizin inkişafında oynadığı rolun əhəmiyyəti müəyyən olundu.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Qəhrəmanova, G.F. İtməyən istedad // Doktorant və gənc tədqiqatçıların XIX Respublika elmi konfransın materialları, – Bakı: – 7-8 aprel, 2015, – s.365-366.
2. Qəhrəmanova, G.F. Məmməd Quliyevin soprano, qarışıq xor və simfonik orkestr üçün yazılmış "Bahar bayramı" əsəri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemlər" XV Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26 fevral, 2016, – s.195-197.
3. Qəhrəmanova, G.F. Bəstəkar Məmməd Quliyevin qarışıq xor üçün a capella "Dağlar" əsəri [Elektron resurs] // – Bakı: Harmony, – 2017. № 16. – s.1. URL:http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=799&s=1&iss=28
4. Qəhrəmanova, G.F. Bəstəkar Məmməd Quliyevin qarışıq xor a capella üçün "Сказание о солнечных горах" əsəri ("Günəşli dağlar haqqında hekayət") [Elektron resurs] // – Bakı: Harmony, – 2018. № 17. – s.1. URL:http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=802&s=1&iss=29
5. Qəhrəmanova, G.F. Məmməd Quliyevin xor və simfonik orkestr üçün "Şəbi-hicran" romantik poeması // IV Uluslarası

Müzik ve Dans Kongresi, – Bodrum: – 19-21 ekim, 2018, – s.198-202. URL: https://ru.scribd.com/document/456545539/4-Uluslararas%C4%B1-Muzik-ve-Dans-Kongresi-Bildiri-Kitab%C4%B1-2018
6. Qəhrəmanova, G.F. Bəstəkar Məmməd Quliyevin “Nizami haqqında dastan” xor a capella üçün əsəri // – Bakı: Musiqi elmi mədəniyyəti və təhsilinin aktual problemləri, – 2019. № 1 (6), – s. 88-92.
7. Qəhrəmanova, G.F. Bəstəkar Məmməd Quliyevin “Əməyin himni” (Əməyin vəsfi) kantatası (soprano, xor və simfonik orkestr üçün) // – Bakı: Musiqi dünyası, – 2019. № 4 (81), – s.61-65.
8. Qəhrəmanova, G.F. Bəstəkar Məmməd Quliyevin – 20 Yanvar şəhidlərinin xatirəsinə
9. messo-soprano, xor və simfonik orkestr uçun “Rekviyem” əsəri // – Bakı: Sənət Akademiyası, – 2020. № 1 (9), – s. 130-133.
10. Гахраманова Г.Ф. Восхваление праздника Новруз в «Сельской кантате» Мамеда Гулиева // – Warszawa, Polska: Colloquium-journal, – 2022. № 14 (137), – s. 4-10. URL: https://colloquium-journal.org/wp-content/uploads/2022/06/Colloquium-journal-2022-137-1.pdf

Dissertasiyanın müdafiəsi 27 may 2024-cü il tarixində saat 11:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.04.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 40 717  işarə

Tiraj: 100